UOT 37.01.

***Vəfa Bəşarət qızı Məmmədova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ YARADICILIĞA YÖNƏLDİLMİŞ METODLARDAN SƏMƏRƏLİ İSTİFADƏNİN PRAKTİK MƏSƏLƏLƏRİ

***Вафа Башарат гызы Мамедова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ НАПРАВЛЕННЫЕ НА ЭФФЕКТИВНОЕ ИСПОЛЬЗОВАНИЕ ТВОРЧЕСКИХ МЕТОДОВ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Vafa Basharat qızı Mammadova,***
*Azerbaijan State Pedagogical University*

# THE PRACTİCAL PROBLEMS FOR EFFİCİENT USE OF METHODS REGARDİNG WİTH WORK İN THE LESSONS OF AZERBAİJAN HİSTORY

**Xülasə:** Məqalə "Azərbaycan tarixi dərslərində yaradıcılığa yönəldilmiş metodlardan səmərəli istifadə məsələsinin praktiki məsələlərinə" həsr edilib. Məqalədə problemin aktuallığı əsaslandırılıb, Azərbaycan tarixi dərslərində yaradıcılığa yönəldilmiş metodlardan səmərəli istifadənin praktiki məsələləri şərh edilib.
***Açar sözlər:*** *fəal təlim, interaktiv təlim üsulları, yaradıcı təfəkkür, yaradıcılığa yönəldilmiş metodlar*

**Резюме:** Статья посвящается эффективному использованию творческих методов на уроках истории Азербайджана. В статье основывается актуальность проблемы, говорится о практическом использовании методов, направленных на развитие творчества на уроках истории Азербайджана.
***Ключевые слова:*** *активное обучение, интерактивные методы обучения, творческое мышление, методы направленные на развитие творчеств*

**Summary:** The article is devoted to "The practical problems for an efficient use of methods regarding with work in the lessons of Azerbaijan History". The urgency of the object has been justified in the article, practicial work regarding with methods of efficient use in the lessons of Azerbaijan History has been interpreted.
***Key words:*** *active training, interactive training methods, creative mentality, methods on directed to creative*

İctimai şərait inkişaf etdikcə dəyişdiyi üçün, təlim metodları da forma və məzmunca dəyişir və yeniləşməyə başlayır. Cəmiyyət öz qarşısına müstəqil düşünən, kamil, rəqabətə qabil şəxsiyyət, yaradıcı insan yetişdirməyi qoymuşdur. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır: "Azərbaycan Respublikasında təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə, demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir" (1, s. 15).

Təlim prosesini aktivləşdirmək, düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək, öyrənməyə maraq yaratmaq üçün həm müəllimi, həm də şagirdi təlimə cəlb etmək lazımdır. Müasir texnikalardan istifadə edilməsi həm müəllim, həm də şagirdlərə kömək ola bilər. Şagirdi təlimin fəal iştirakçısı olmaq üçün hazırlanmaq lazımdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitinə tətbiq etməkdə yardım göstərməlidir. Ümumiyyətlə, istifadə olunan təlim me-

todları öyrənənlərin təlimə marağını artırmalı, onlarda sonrakı dərslərə həvəs və maraq oyatmalıdır. İnteraktiv metodlar qabiliyyətlərin oyanması və hərəkətə gətirilməsi üçün müəllim tərəfindən istifadə olunan üsul və vasitələrin məcmusu olduğundan, çalışmaq lazımdır ki, dərsdə aparılan fikir mübadiləsi, çıxarılan nəticələr axıcı olsun, fikir fikirdən doğsun, şagirdlərin öyrənməyə meyilləri artsın. Bütün bunları həyata keçirtmək üçün interaktiv təlim metodları geniş imkanlar yaradır. İnteraktiv təlim şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur (2, s. 11).

İnteraktiv təlim metodları içərisində yaradıcılığa yönəldilmiş metodlar xüsusi yer tutur. Yaradıcılığa yönəldilmiş üsullardan istifadə, bu üsulların Azərbaycan tarixi dərslərinə praktiki tətbiqi təlimin səmərəliliyini artırır və keyfiyyətini yüksəldir. Bu metodlarla təşkil edilən dərslər şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir. Xüsusilə Azərbaycan tarixi dərslərində bu metodların praktiki cəhətdən tətbiqi məqsədəuyğundur. Çünki bu, şagirdlərin idrakını sürətləndirir və fəallaşdırır. İdrak nəzəriyyəsində biliklərin, hər şeydən əvvəl, nəzəri biliklərin doğruluğu praktikada yoxlanılır (3, s. 138).

Yaradıcılığa yönəldilmiş texnikaların əsas məqsədi çeviklik və orijinallığı inkişaf etdirməkdir. Burada verilən tapşırıqlar bütün siniflə, kiçik qruplarda, cütlərdə və ya fərdi formada keçirilə bilər (4, s. 516).

Azərbaycan tarixinin tədrisində yaradıcılığa yönəldilmiş metodlardan istifadə olunmuş dərs nümunəsinə nəzər salaq.

**Mövzu:** Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin başa çatması.

**Standart:** 1.2.2, 3.1.3.

**Məqsəd**: 1. Rusiya-Qacarlar müharibəsinin səbəblərini təhlil edərək onun nəticələrini təqdim edir.

2. Rusiya ilə Qacarlar arasında gedən diplomatik danışıqlara aid cədvəl qurur, tarixi Azərbaycan torpaqlarının işğalına aid sxem qurur.

**İnteqrasiya**: Ümumi tarix, Coğrafiya

**İş forması:** Kollektiv iş, kiçik qruplarla iş

**İş üsulu:** Yaradıcı əsərlərin yaradılması, Beyin həmləsi

**Resurslar:** Dərslik: Azərbaycan tarixi dərsliyi, VIII sinif, xəritə, iş vərəqləri

**Motivasiya:** Şəkillər və xəritə göstərilir və şagirdlərdən soruşulur: bu şəkillər və xəritə əsasında nə deyə bilərsiniz? Sizcə bu şəkillər və xəritə Azərbaycan tarixindəki hansı vacib hadisələri əks etdirir?

**Tədqiqat sualı:** Türkmənçay müqaviləsinin işğalçı dövlətlər və Azərbaycan üçün nəticələri nədən ibarət oldu?

Şagirdlər tədqiqat mövzusu haqqında məlumat toplamaq və tapşırıqları yerinə yetirmək üçün 4 qrupa bölünür və belə adlandırılır: I qrup: Naxçıvan, II qrup İrəvan, III qrup: Bakı, IV qrup: Gəncə

**Qruplarla iş:**

**I. Naxçıvan qrupu:** II Rusiya və Qacarlar müharibəsinin səbəblərini göstərin.

**II. İrəvan qrupu:** Türkmənçay müqaviləsi ərəfəsində Azərbaycandakı siyasi vəziyyəti izah edin.

**III. Bakı qrupu**: Türkmənçay müqaviləsinin şərtlərinə aid sxem qurun.

**IV. Gəncə qrupu:** Türkmənçay müqaviləsinə görə ermənilərin Azərbaycana köçürülməsinin səbəblərinə dair hekayə yazın.

**Məlumat mübadiləsi:** Müəyyən edilmiş vaxt ərzində şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

**Məlumat müzakirəsi:** Qrupların cavabları diqqətlə dinlənilir, müzakirə olunur, əlavələr edilir. Müzakirə diskussiya şəklində aparılır. Bununla da şagirdlərdə polemika mədəniyyəti inkişaf etdirilir.

**Ümumiləşdirmə və nəticə:** II Rusiya və Qacarlar müharibəsinin başlanma səbəbləri, bu dövrdəki işğallar, Türkmənçay müqaviləsi ərəfəsində Azərbaycanda olan vəziyyət, Türkmənçay müqaviləsinin maddələri, Türkmənçay müqaviləsinə görə ermənilərin Azərbaycana köçürülməsi və s. haqqında biliklər mənimsənilir.

**Yaradıcı tətbiqetmə:** Gülüstan və Türkmənçay müqavilələri haqqında slayd hazırlayın.

**Ev tapşırığı:** Ermənilərin Azərbaycana köçürülməsi haqqında əlavə məlumat toplayaraq esse yazın.

**Qiymətləndirmə**

| **Meyarlar** | 1-ci qrup | 2-ci qrup | 3-cü qrup | 4-cü qrup |
|---|---|---|---|---|
| Uyğun informasiyanı seçir | | | | |
| Tapşırığa uyğun təqdimat hazırlayır | | | | |
| Xronoloji məsələləri həll edir | | | | |
| Əməkdaşlıq | | | | |
| Nizam-intizam | | | | |
| Ümumi nəticə | | | | |
| | | | | |

**Mövzunun aktuallığı:** yaradıcılığa yönəldilmiş üsullardan istifadənin nəzəri və praktik məsələləri alim, metodist və pedaqoqların yaradıcılıqlarında diqqət mərkəzində olan mövzulardan biridir. Lakin bu problem günümüzədək kifayət qədər tədqiq olunmayıb.

**Nəticə:** Nəticə olaraq qeyd edək ki, yaradıcılığa yönəldilmiş metodlardan Azərbaycan tarixi dərslərində istifadə olunması şagirdlərin yaradıcı təfəkkürünün inkişafına imkan yaradır. Bununla da Azərbaycan tarixinin tədrisində təlimin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə nail olunur.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, əldə olunan nəticələrdən magistrantlar, tarixin tədrisi metodikası ilə məşğul olan mütəxəssislər istifadə edə biləcəklər. Eləcə də, əldə olunan nəticələr tarixin tədrisi metodikası elmini zənginləşdirəcək.

**Məqalənin praktiki əhəmiyyəti** məqalənin məzmunundan ümumtəhsil məktəblərinin müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Ədəbiyyat:**

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Zülfiyyə Veysova. Fəal interaktiv təlim (müəllimlər üçün vəsait). Bakı, 2007.
3. Hüseyn Əhmədov, Fərrux Rüstəmov. Pedaqoqika. Bakı, 2010.
4. Mübariz Əmirov. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlim metodikası. Bakı, 2011.

**E- mail** : vafa-memmedzade@mail.ru
**Rəyçilər**: *tarix ü. elm. dok., dos*. S.M. Seyidova,
*ped. ü.elm. dok., prof.* M.M. Əmirov
**Redaksiyaya daxil olub:** 26.11.2018.